Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

# Alim, yaradıcı insan, cəsarətli polis

## O, Azərbaycanda "Nəqliyyat hüququ"nun banisi kimi tanınır

**Azərbaycan hüquq elminin inkişafında xidmətləri olan, insanlığın və alimliyin zirvəsində dayanan cəsarətli tədqiqatçı və yenilməz polis zabitlərimizdən biri də polis polkovniki, hüquq elmləri doktoru, professor Etibar Əli oğlu Əliyevdir. Heç zaman haqqı-nahaqqa verməyən, öz ədalətli mövqeyini, dövlətçilik ənənələrini və çalışdığı kollektivin nüfuzunu yüksək tutan E.Əliyev hər zaman özünü vətənin, Ali Baş Komandanın sıravi əsgəri adlandırır.**

Aydındır ki, yüksək mənəviyyat, zəngin dünyagörüşü və xeyirxahlıq hissi olmadan hər hansı bir insanın cəmiyyətdə qəbul edilməsi, kollektivdə hörmətlə qarşılanması qeyri-mümkündür. Eyni zamanda, özünə qarşı tələbkarlıq, peşəsinə yaxından bələd olmaq, çalışdığı sahəyə ürəkdən bağlanmaq, peşəsinin nəzəri və praktiki incəliklərinə yiyələnmək kimi xüsusiyyətlər də yüksək insanı keyfiyyətlərdən xəbər verir. Professor Etibar Əliyev də, məhz yuxarıda qeyd edilən yüksək insanı xüsusiyyətləri özündə birləşdirən, zəngin dünya görüşünə və dərin biliyə malik bir ziyalı, cəsarətli, vətənpərvər bir polis polkovnikidir.

### NƏZƏRİYYƏ İLƏ PRAKTİKANI BİRLƏŞDİRƏN ALİM

Daim məsuliyyətlə öz işinin üzərində olan, məhsuldar tədqiqatçı, xalqını, vətənini sevən əzmkar polis polkovniki, hər zaman köməyə ehtiyac duyanların yanında olan hüquqşünas Etibar Əli oğlu Əliyev ləyaqətli və zəhmətkeş ömrünün 60-cı baharına yaxınlaşır. Bu insanı fərqləndirən xüsu-siyyətlərdən biri də kitaba olan sevgisi, yaradıcılıq həvəsidir. Etibar müəllim harada oturursa, həmin otaq qısa müddətdə zəngin bir kitabxanaya bənzəyir. Bu insanda öz peşəsinə sevgi, kitaba, yaradıcılığa olan həvəs tükənməzdir. Qeyd edildiyi kimi, E.Əliyev tanınmış polis polkovniki olmaqla yanaşı, Azərbaycan elminin, xüsusilə də hüquq elminin böyük təəssübkeşidir. O, nəinki ölkəmizdə, hətta Ukrayna, Rusiya, Gürcüstan, Belarus, Polşa və s. kimi ölkələrdə də nüfuzlu və yaradıcı hüquqşünas kimi hörmətlə qarşılanır. Polis orqanlarında məsuliyyətli və şərəfli fəaliyyəti ilə yanaşı, Etibar müəllim, həm də yerli və xarici elmi jurnallarda çap olunmuş yüzlərlə məqalənin və 10-dan çox kitabın müəllifidir. Etibar müəllimin həyat və fəaliyyəti ilə tanışlıq, ümummilli lider Heydər Əliyevin bir aforizmini yada salır: "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar" .

Doğrudan da, Etibar müəllim, məhz nəzəriyyə ilə praktikanı birləşdirən bir insandır. Onun əsərləri ilə tanışlıqdan da aydın olur ki, kitablarda qarşıya qoyulmuş məsələlərin hərtərəfli nəzəri izahı ilə yanaşı, praktiki tərəfləri də geniş şəkildə işıqlandırılır. Nəqliyyat sektorunda araşdırmalar aparan bir tədqiqatçı kimi hesab edirəm ki, müəllifin nəqliyyat hüququ sahəsində əsərləri və fikirləri, xüsusilə diqqəti cəlb edir. Professor Etibar Əliyev həm də Azərbaycanda "Nəqliyyat hüququ"nun banisi kimi tanınır. Məhz, bu alimin zəhməti sayəsində "Nəqliyyat hüququ" ayrıca hüquq sahəsi kimi qəbul edilmişdir. Müəllifin "Yol hərəkətinin beynəlxalq hüquqi tənzimlənməsi və milli qanunvericilik" (2003, dərs vəsaiti), "Nəqliyyat hüququnun əsasları" (2004, dərs vəsaiti), "Azərbaycan Respublikasının nəqliyyat hüququ" (2005, dərs vəsaiti) və s. kimi kitablarının işıq üzü görməsindən sonra, artıq "Nəqliyyat hüququ" fənni ayrı-ayrı universitetlərdə müvafiq ixtisaslar üzrə kadr hazırlığı prosesində tədris edilməkdədir. Son dərəcə məsuliyyətli və zəhmətkeş insan olan hüquqşünas alim E.Əliyev, "Nəqliyyat hüququ" fənninin tədris proqramını da işləyib hazırlamış və kitab ayrıca dərs vəsaiti kimi müvafiq qurumlar tərəfindən qəbul edilmişdir.



### GƏNC TƏDQİQATÇILARA NÜMUNƏ OLAN İNSAN

Etibar müəllimin "Beynəlxalq avtomobil daşımaları" (2007, dərslik), "Qloballaşma dövründə beynəlxalq nəqliyyat daşımaları: hüquqi aspektlər" (2006), "Beynəlxalq nəqliyyat hüququ" (2009, dərslik) və s. kitabları hər bir nəqliyyatçı mütəxəssisin və hüquqşünasın stolüstü kitabına çevrilmişdir. Müvafiq sahədə araşdırmalar apararkən və ya praktiki fəaliyyət göstərərkən, Etibar Əliyevin elmi əsərlərinə, monoqrafiyalarına istinad etməmək, bu dəyərli elmi işlərdən yararlanmamaq, sadəcə, mümkün deyildir. Açığını desəm, Etibar müəllimin yaradıcılıq həvəsi, daim yenilik axtarışı, eləcə də paralel olaraq polis polkovniki kimi şərəfli və məsuliyyətli bir fəaliyyətlə məşğul olması, bir çox tədqiqatçılar tərəfindən qibtə ilə qarşılanır. Əksər gənc tədqiqatçılara nümunə olan bu insanla birlikdə olarkən, elmi müzakirələrin və mübahisələrin olmamağı qeyri-mümkündür.

Etibar müəllimin tədqiqatlarının bir istiqamətini də beynəlxalq iqtisadi hüquq təşkil edir. Təbii ki, sürətlə qloballaşan dünyada hər bir dövlətin dinamik inkişafında xarici amillərin rolu artır. İntensiv inteqrasiya prosesləri ilə xarakterizə olunan müasir dövrdə xarici bazarlara çıxış, dünyada cərəyan edən sosial-iqtisadi və siyasi proseslərdə fəal iştirak, dünya bazarına rəqabət qabiliyyətli milli məhsullarla çıxışın təmin edilməsi, eləcə də bütün bunların qarşılığında milli və dövlətçilik prinsiplərinin qorunub saxlanması hər bir dövlətin tərəqqisinin zəruri şərtinə çevrilmişdir. Başqa sözlə desək, beynəlxalq aləmə sürətli inteqrasiya, qlobal iqtisadi mühitə sərbəst çıxış müstəqilliyin əsas şərtlərindəndir. Bu baxımdan da, hər an dəyişən dünyada müstəqilliyin, milli və iqtisadi təhlükəsizliyin əsas şərtlərindən olan beynəlxalq iqtisadi münasibətlərin hüquqi baxımdan düzgün tənzimlənməsi xüsusi aktuallıq kəsb edir. Ona görə də, hər bir vətəndaşın, xüsusilə, müvafiq ixtisas sahiblərinin, uyğun sahədə çalışan ixtisaslı kadrların, milli qanunvericilik sənədləri ilə yanaşı, beynəlxalq iqtisadi hüquq normaları və müddəalarına da bələd olması çox vacibdir. Hüquq elmləri doktoru Etibar Əliyevin "Beynəlxalq iqtisadi hüquq: ümumi müddəalar" adlı kitabı, məhz qeyd edilən istiqamətlər üçün dəyərli mənbə ola bilər. Kitabda beynəlxalq iqtisadi hüquqa dair geniş fikirlər yer almış, müxtəlif istiqamətlərdə təhlil və araşdırmalar aparılmış, eləcə də müvafiq ümumiləşdirmələr verilmişdir. Ümumilikdə 6 fəsil və 20-dən çox paraqrafdan ibarət olan kitabda beynəlxalq iqtisadi hüquq anlayışı, onun predmeti, beynəlxalq iqtisadi hüquq sistemi və onun ümumi sistemdə yeri, subyektləri, mənbələri, prinsipləri və s. məsələlər ətraflı şəkildə şərh edilmiş, eləcə də milli qanunvericiliklə müqayisəli təhlil və müəllifin şəxsi yanaşması əsasında müvafiq ümumiləşdir-mələr aparılmışdır. Kitabda diqqəti çəkən, əsas məqamlardan biri də beynəlxalq inteqrasiya hüququnun geniş şəkildə oxuculara çatdırılmasıdır. Belə ki, kitabın "Beynəlxalq iqtisadi inteqrasiya hüququ" adlanan V fəslində inteqrasiya proseslərinin mahiyyəti izah edilmiş, dünyada inteqrativ proseslərin inkişaf dinamikası nəzərdən keçirilmiş və qlobal məkanın düzənlənməsində əhəmiyyətli rol oynayan Avropa İttifaqı, Avropa Azad Ticarət Assosiasiyası, Cənubi Amerika Ümumi bazarı, Müstəqil Dövlətlər Birliyi və s. təşkilatların inteqrasiya proseslərində oynadığı rol hüquqi cəhətdən izah edilmişdir. İnteqrasiya proseslərinin ayrı-ayrı milli dövlətlər üçün əhəmiyyətini qeyd edən müəllif, sonrakı fəsildə məsuliyyət məsələlərinə aydınlıq gətirir ki, bu da kitabın üstün cəhətlərindən biri kimi qəbul edilə bilər. Məlumdur ki, hər bir hüquqi sənəd müəyyən tənzimləyici xarakterə malikdir ki, bu da subyektin hüquq və vəzifələri ilə yanaşı, məsuliyyətini də müəyyənləşdirir. Təqdim edilən kitabda da, beynəlxalq iqtisadi hüququn, inteqrativ proseslərin ayrı-ayrı milli təsərrüfatlar üçün əhəmiyyətli cəhətlərinin izah edilməsi və bu proseslərdə məsuliyyətin aydınlaşdırılması, kitaba bitkin elmi əsər kimi yanaşmaq imkanı verir. Beynəlxalq iqtisadi hüquqa kompleks yanaşmaq, ayrı-ayrı məsələləri ətraflı şəkildə izah etmək kitabın dəyərini və aktuallığını daha da artıraraq, onun uyğun mütəxəssislər üçün vacibliyini xarakterizə edir.

### ÖZ PEŞƏSİNƏ DƏ "BORCLU" QALMAYIB

Ümumiyyətlə, E.Əliyevin yaradıcılığı ilə tanışlıqdan aydın olur ki, istər nəqliyyat hüququ, istər beynəlxalq nəqliyyat əməliyyatları və istərsə də müasir beynəlxalq iqtisadi münasibətlər sahəsində ən yeni normativhüquqi sənədlər və çoxsaylı elmi mənbələr tədqiq edilmiş, Azərbaycan Respublikasının beynəlxalq mühitə səmərəli inteqrasiyasına, ölkəmizin dinamik tərəqqisinə xidmət edən elmi əsərlər işlənib hazırlanmışdır. Bu baxımdan da, Etibar müəllimin əsərləri ali məktəb tələbələri, hüquqşünaslar, nəqliyyat və iqtisadi hüquq elmi sahəsində çalışanlar, bu sahədə elmi-tədqiqatlar aparan aspirant və dissertantlar, eləcə də praktik işçilər üçün dəyərli elmi mənbəyə çevrilmişdir. Müəllifin əsərləri ölkəmizin beynəlxalq nəqliyyat əməliyyatlarında iştirakı, qlobal nəqliyyat layihələrindən daha səmərəli istifadə və qlobal iqtisadi mühitdə ölkəmizin iştirakçısı olduğu proseslərin optimal və operativ tənzimlənməsində də mühüm rol oynayacaqdır.

Qeyd edildiyi kimi, E.Əliyevi digər insanlardan fərqləndirən başlıca xüsusiyyətlərdən biri də, daimi elmi müzakirələrə can atması, elmi diskussiyalara maraq göstərməsidir. Bu, hüquqşünas alimlə ünsiyyətdə olarkən, hər hansı elmi müzakirə və ya fikir bölüşdürməsi aparmadan ayrılmaq qeyri-mümkündür. Daim novatorluğu ilə seçilən Etibar müəllim öz peşəsinə də "borclu" qalmamış, təkmil bir "Polis hüququ" kitabı işləyib ərsəyə gətirmişdir. Əlbəttə, bu qədər gərgin və məsuliyyətli əmək fəaliyyəti ilə yanaşı, həm də elmi yaradıcılıqla məşğul olmaq, yalnız Etibar Əliyev kimi zəhmətkeş və yaradıcı insanlara xasdır.

Professor E.Əliyevin həyatında pedaqoji fəaliyyətin də öz yeri vardır. 1997-ci ildən BDU-nun "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının professoru kimi pedaqoji fəaliyyətlə məşğul olan Etibar müəllim mütəmadi olaraq öz biliklərini, təcrübəsini gənclərlə də bölüşür. Peşəsini və elmi yaradıcılığı tələbələrinə sevdirməyi bacaran, onların məqalələrini, yaradıcılıq təşəbbüslərini təmənnasız şəkildə redaksiya heyətinin üzvü olduğu yerli və xarici jurnallarda işıqlandıran Etibar müəllim, ictimai sferada da aktiv bir insandır. O, Azərbaycan Respublikası Gənc Hüquqşünaslar Birliyinin Ekspert Şurasının sədri, Azərbaycan Hüquqşünasları Konfederasiyasının elmi eksperti, Avrasiya Hüquqşünaslar Assosiasiyasının İdarə Heyətinin üzvüdür.

Bəli, yuxarıda qeyd edilən məsuliyyətli işlərin öhdəsindən layiqincə gələn, bütün dövrlərdə özünü inkişaf etdirməyə çalışan, daim axtarışda olan xeyirxah insan, əsl dost, tələbkar alim və qətiy-yətli polis polkovniki Etibar Əli oğlu Əliyev 15 aprel tarixində ömrünün 60-cı baharına qədəm qoyur.

Əziz Etibar müəllimi anadan olmasının 60 illiyi münasibətilə təbrik edir, can sağlığı, uzun ömür, elmi və praktiki fəaliyyətində yeni-yeni uğurlar arzu edirəm.

**Aqil Əsədov**
**Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun "Xidmət sahələrinin inkişaf problemləri" şöbəsinin müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***